

AQTA

AZƏRBAYCAN
RESPUBLİKASININ
QİDA TƏHLÜKƏSİZLİYİ
AGENTLİYİ

# BİTKİ MÜHAFİZƏ VASİTƏLƏRİNİN TƏHLÜKƏSİZ SAXLANMA QAYDALARI



# BİTKİ MÜHAFİZƏ VASİTƏLƏRİNİN TƏHLÜKƏSİZ SAXLANMA QAYDALARI

Bitkilərin məhsuldarlığını artırmaq məqsədilə onların xəstəlik, zərərvericiləri və alaq otları ilə mübarizə aparılması üsullarından biri də pestisidlərdən istifadə edilməsidir. Pestisidlərin daşınması, saxlanması və tətbiqi zamanı təhlükəsizlik qaydalarına əməl olunması isə xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan pestisidlərdən istifadə zamanı insan sağlamlığı və ətraf mühitin təhlükəsizliyi təmin olunmalı, baş verə biləcək təhlükələrin qarşısı alınmalı və digər zəruri tədbirlər həyata keçirilməlidir.

Bitki sağlamlığının təmin olunması, yüksək keyfiyyətli qida məhsullarının istehsalı, həmçinin bitki örtüyünün qorunması və inkişafı üçün bitki mühafizə vasitələri, o cümlədən pestisid və bioloji preparatlardan istifadə edilir. Pestisidlər bitkilərin məhsuldarlığını artırmaq məqsədilə onların xəstəlik, zərərvericiləri və alaq otları ilə mübarizə aparmaq üçün istifadə olunan zəhərli kimyəvi maddələrdir.





# PESTİSİDLƏRİN DAŞINMASI, SAXLANMASI VƏ TƏTBİQİ XÜSUSİ QAYDADA HƏYATA KEÇİRİLMƏLİDİR

- Pestisidlər etiketində nəzərdə tutulan temperaturda saxlanılmalı;
- Birbaşa günəş işığından, rütubətdən, çirklənmədən və mexaniki zədələrdən qorunmalı;
- Ağzı açıq vəziyyətdə saxlanılmamalıdır.




**!**

**Pestisid saxlanılan anbarlarda termometr qoyulmalı, hər gün otağın temperaturuna (18-22º C ) nəzarət edilməlidir.**

# PESTİSİDLƏRİN DAŞINMASI, SAXLANMASI VƏ TƏTBİQİ XÜSUSİ QAYDADA HƏYATA KEÇİRİLMƏLİDİR

**İstifadə təyinatına** (insektisidlər, funqisidlər, herbisidlər və s.)

**Aqreqat halına** (maye və toz (dənəvər, səpələnən və s.)

**Təhlükəlilik dərəcəsinə**

**Fiziki-kimyəvi xassəsinə**



**!**

**Yanğın təhlükəsizlik dərəcəsinə görə ayrı-ayrılıqda paletlərdə, stellaj və ya rəflərdə saxlanılmalıdır.**

Pestisidlər birbaşa döşəmə üzərində saxlanılmamalı, hündürlüyü 20-25 santimetr olan paletlər üzərində yığılmalı, ya da divarla 1 metr ara məsafəsi gözlənilməklə stellaj və ya rəflərə saxlanılmalıdır. Maye halında olan pestisidləri sızmalardan qorumaq üçün qablaşma üzərindəki ox işarəsi istiqamətində yığılması lazımdır. Təhlükəsizlik baxımından üst-üstə yığılmış çənlərin hündürlüyü 2 metrdən çox olmamalı, həmçinin stellaj və rəflərə yaxınlaşmaq üçün əlverişli şərait olmalıdır.



Toksiki, tez alışan, partlayıcı, yanıcı xüsusiyyətləri yüksək olan pestisidlər havalandırma sistemi olan qapalı dolabda saxlanılmalı və qapının üzərinə xəbərdarlıq yazısı asılmalıdır.




Anbarın temperaturu hər gün yoxlanılmalı, məcburi hava dəyişən qurğular, qaz sızmasını xəbər verən dedektor və yanğınsöndürmə balonu təmin edilməlidir.

Pestisidlər hermetik qablarda saxlanılmalı, xüsusi nəqliyyat vasitələri ilə daşınmalıdır. Nəqliyyat vasitələrinin üstündə “Zəhərli maddə” sözləri yazılmalıdır.






# PESTİSİDLƏRDƏN İSTİFADƏ OLUNAN SAHƏNİN KƏNARINA

**Sahə dərmanlanmışdır!**

**Kənar şəxslərin girişi qadağandır!**

**Mal-qaranın buraxılması qəti qadağandır!"**

sözləri yazılmış müvafiq xəbərdaredici lövhələr vurulmalı, yaxınlıqda arıçılıq təsərrüfatları varsa, bu barədə öncədən məlumat verilməlidir.

Pestisidlərlə işləyərkən qoruyucu geyim və fərdi mühafizə vasitələrindən istifadə edilməsi şərtdir. Eyni zamanda küləkli, yağışlı və günəş altında pestisidlərdən istifadə edilməməli, bu proses səhər və axşam saatlarında, havanın sərin və az küləkli vaxtlarında aparılmalıdır. Həmçinin pestisidlə işləyən şəxs ac olmamalı, pestisid tətbiq edilən sahədə siqaret çəkilməməlidir.



# ZƏRƏRÇƏKƏNƏ İLKİN TİBBİ YARDIM GÖSTƏRİLMƏLİDİR:

Pestisidlərin təsirinə məruz qalan zaman zərərçəkən mütləq təmiz havaya çıxarılmalı və ilkin tibbi yardım göstərildikdən sonra xəstəxanaya çatdırılmalıdır. Bu zaman istifadə edilən preparatın etiketi həkimə göstərilməklə, hadisə barədə məlumat verilməlidir.

# PESTİSİDLƏRDƏN YALNIZ TƏYİNATI ÜZRƏ İSTİFADƏ OLUNMALIDIR:

Kənd təsərrüfatı təyinatlı pestisidlərdən məişətdə istifadə olunması qəti qadağandır. Bu kimyəvi maddələrdən təyinatına uyğun olmayan xəstəlik və ya zərərvericilərə qarşı istifadə olunmamalıdır. Pestisidlər uşaqların əlinin çatmadığı yerlərdə saxlanılmalıdır. Boş pestisid qablarında su, süd və ya digər məhsulların saxlanılması yolverilməzdir. Belə qablar təsərrüfatlara və həmin əraziyə yaxın yerlərə atılmamalı, anbarda xüsusi təhlükəsiz yerlərdə saxlanılmalıdır.







# YARARLILIQ MÜDDƏTİ BİTMİŞ PESTİSİDLƏRDƏN İSTİFADƏ EDİLMƏMƏLİDİR!

Təsərrüfatlarda yararlılıq müddəti bitmiş pestisidlərdən istifadə olunmamalıdır. Belə məhsullar dövriyyədən çıxarılmalı və anbarda digər məhsullardan ayrı yerdə saxlanılmalıdır. Həmçinin bu pestisidlərin üzərinə istifadəyə yararsız olması barədə xəbərdaredici xüsusi nişan vurulmalıdır. Boş pestisid qablarını və istifadəyə yararsız preparatları zərərsizləşdirmək üçün Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə məlumat verilməlidir.

Texniki təhlükəsizlik qaydalarına və tətbiq olunma təlimatına dəqiq riayət edildikdə, pestisidlər ətraf mühitə və insan sağlamlığına çox mənfi təsir göstərmir. Əksinə, bitkilərin zərərli orqanizmlərini məhv etməklə, itkinin qarşısını alır, məhsulun əmtəəlik keyfiyyətinin qorunub saxlanmasına səbəb olur.

**Pestisidlərin daşınması, saxlanması və tətbiqi zamanı istifadə və təhlükəsizlik qaydalarına əməl edək!**




!

**Preparatlardan bitki mühafizə üzrə ixtisaslaşmış mütəxəssislərin tövsiyəsinə uyğun istifadə edilməlidir**


AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ
1003
Çağrı mərkəzi
+994 12 377 00 77
Bakı şəhəri, Nizami Rayonu, Heydər Əliyev pr. 185 B, AZ1029
www.afsa.gov.az
info@afsa.gov.az